**Dövlət qeydiyyatına alınmışdır:**

Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyində

«23» 12 2012-ci il

Qeydiyyat və notariat baş idarəsinin rəisi

İlqar Məmmədov ____________

**Təsdiq edilmişdir:**

Mədəniyyət İşçiləri Həmkarlar İttifaqının
« 09 » oktyabr 2012-ci il tarixli
XVII Respublika Konfransının qərarı ilə

Respublika Komitəsinin sədri

Cəmilə Səttarova ____________

# MƏDƏNİYYƏT İŞÇİLƏRİ HƏMKARLAR İTTİFAQININ NİZAMNAMƏSİ

**(dördüncü redaksiya)**

# I. ÜMUMİ MÜDDƏALAR.

1.1. Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı (bundan sonra Həmkarlar İttifaqı adlanacaq) öz fəaliyyətini Azərbaycan Respublikasının Konstitusiyasına, «Həmkarlar İttifaqları haqqında» Qanuna, digər qanunvericilik aktlarına və bu Nizamnaməyə uyğun olaraq həyata keçirir.

1.2. Həmkarlar İttifaqının fəaliyyətində könüllülük, üzvlərinin bərabərliyi, şəffaflıq əsas prinsiplərdir.

1.3. Həmkarlar İttifaqı müstəqil, ictimai və qeyri-siyasi təşkilatdır.

1.4. Həmkarlar İttifaqı respublika ərazisində sahə və peşə üzrə həmkarlar ittifaqı təşkilatları özündə birləşdirir.

1.5. Həmkarlar İttifaqı dövlət və icra orqanlarından, müəssisələrdən, təşkilatlardan, siyasi partiyalardan və ictimai birliklərdən asılı deyil və onlara hesabat vermir.

1.6. Həmkarlar İttifaqı 27.03.1996-cı il tarixdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində dövlət qeydiyyatına alınmışdır.

1.7. Həmkarlar İttifaqının hüquqi ünvanı: Bakı şəhəri, Gənclər meydanı, 3.

# II. HƏMKARLAR İTTİFAQININ MƏQSƏD VƏ VƏZİFƏLƏRİ.

2.1. Həmkarlar İttifaqının məqsədi üzvlərin əmək, sosial, iqtisadi hüquqlarının və mənafelərinin müdafiəsini təmin etməkdir.

2.2. Həmkarlar İttifaqının əsas vəzifələri:

2.2.1 işçilərin mənafelərini və həmkarlar ittifaqının hüquqlarını pozan qanunvericilik aktları, dövlət orqanlarının qərarları, sərəncamları barədə müvafiq qanunvericilik, icra və məhkəmə orqanlarına müraciət etmək;

2.2.2. əmək və iş şəraitinin yaxşılaşdırılmasına, üzvlərin sağlamlığının mühafizəsinə nəzarət etmək və müvafiq orqanlara təkliflər vermək.

2.2.3. dövlət məşğulluq siyasətinin həyata keçirilməsinə köməklik göstərmək.

2.2.4. müəssisə və təşkilatlarda məşğulluğun vəziyyətinə, məşğulluq sahəsində təminatlar haqqında qanunvericiliyə əməl olunmasına nəzarət etmək.

2.2.5. işəgötürənlərdən qanunvericiliyə əməl olunmasını və aşkar edilmiş pozuntuların aradan qaldırılmasını tələb etmək;

2.2.6. işəgötürənlərlə danışıqlar aparmaq, müqavilələr, sazişlər bağlamaq, onların yerinə yetirilməsinə nəzarət etmək;

2.2.7. fərdi əmək mübahisələrinin qanunvericilik çərçivəsində həll olunmasına köməklik etmək, kollektiv əmək mübahisələrinə baxılmasında iştirak etmək;

2.2.8. müəssisə və təşkilatlarda ətraf mühitə və əhalinin sağlamlığına təsir göstərən, zərərli və təhlükəli faktorların aradan qaldırılmasına, əmək və əməyin mühafizəsi üzrə qanunvericiliyin əməl olunmasına nəzarət etmək.

2.2.9. üzvlərin sağlamlığının möhkəmləndirilməsinə qayğı göstərərək pensiya təminatının, sanatoriya, kurort müalicəsinin və istirahətlərinin təşkilində onlara köməklik göstərmək;

2.2.10. həmkarlar İttifaqı üzvlərinə təşkilatı, metodiki və hüquqi köməklik göstərmək.

2.2.11. işçilərin sosial-iqtisadi vəziyyətini təhlil edib, təkliflər vermək.

2.2.12. işçilərin peşə ixtisasının artırılmasına və qabaqcıl iş təcrübəsinə yiyələnməsinə köməklik göstərmək.

2.2.13. xarici ölkələrin müvafiq həmkarlar ittifaqı təşkilatları ilə əlaqələri, təcrübə və məlumat mübadiləsini təşkil etmək, ümumrespublika və beynəlxalq həmkarlar ittifaqları hərəkatının fəaliyyəti barədə ittifaq üzvlərini məlumatlandırmaq.

2.2.14. dövlət orqanlarında, işəgötürənlərin təşkilatlarında, ictimai və siyasi təşkilatlarda öz üzvlərinin qanuni hüquq və mənafelərini müdafiə etmək;

2.2.15. İttifaq üzvlərinin əmək və sosial-iqtisadi hüquqlarını müdafiə etmək, zəruri hallarda məhkəməyə müraciət etmək.

2.2.16. ətraf mühitə və sağlamlığa təhlükəli təsir göstərən ekoloji faktorların aradan qaldırılmasına, ittifaq üzvlərinin sağlam və təhlükəsiz iş şəraiti ilə təmin edilməsinə ictimai nəzarəti təşkil etmək.

2.2.17. üzvlərinin sağlamlığının möhkəmləndirilməsinə qayğı göstərmək, sosial sığortanın səmərəli istifadə olunmasına təkliflər vermək, tibb sığortasının, sanator-kurort müalicəsinin, istirahətin, turizmin,bədən tərbiyəsi və idmanın inkişafına yardım etmək;

2.2.18. Həmkarlar İttifaqı təşkilatlarının həmrəyliyini gücləndirmək və inkişaf etdirmək, ittifaq üzvlərinə əmək, sosial-iqtisadi və hüquqi məsələlər üzrə məsləhətlər vermək, ehtiyac olduqda maddi yardımlar göstərmək.

2.2.19. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının Qərarlarını yerinə yetirmək.

## III. HƏMKARLAR İTTİFAQININ HÜQUQLARI.

Həmkarlar İttifaqı aşağıdakı hüquqlara malikdir:

- öz adından əqdlər bağlamaq, əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə etmək, vəzifələr daşımaq, məhkəmədə iddiaçı və ya cavabdeh kimi çıxış etmək;
- respublikada fəaliyyət göstərən digər həmkarlar ittifaqları və beynəlxalq həmkarlar ittifaqı təşkilatları ilə əməkdaşlıq etmək,beynəlxalq həmkarlar ittifaqı təşkilatlarına daxil olmaq;
- banklarda hesablar açmaq və hesablaşmalar aparmaq;
- müstəqil balansa, möhürə, ştampa və digər rekvizitlərə malik olmaq;
- qanunvericiliklə qadağan edilməyən və nizamnamə məqsədlərinə uyğun olan sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq;
- özünün maliyyə vəsaitindən və mülkiyyətindən müstəqil istifadə etmək;
- Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyən edilmiş digər hüquqlardan istifadə etmək.

## IV. HƏMKARLAR İTTİFAQINA ÜZVLÜK, ÜZVLƏRİN HÜQUQİ VƏ VƏZİFƏLƏRİ.

4.1. Həmkarlar İttifaqının Nizamnaməsini qəbul edən, mədəniyyət və turizm, gənclər və idman, poliqrafiya, incəsənət, kütləvi informasiya, teleradio sahələrində və yaradıcılıq birliklərində çalışanlar, habelə həmin sahələrdə işləyib təqaüdə çıxmış şəxslər həmkarlar ittifaqının üzvü ola bilərlər.

4.2. Həmkarlar İttifaqının üzvlüyünə qəbul könüllülük prinsipi ilə ərizə əsasında həyata keçirilir.

4.3. Əmək fəaliyyətini əmək müqaviləsinə əsasən həyata keçirən şəxslər, həmin təşkilatdan təqaüdə çıxmış işçilər – işləməyən təqaüdçülər və orta-ixtisas və ali təhsil müəssisələrində oxuyan şəxslər Həmkarlar İttifaqına üzv ola bilərlər.

4.4. Həmkarlar İttifaqına qəbul və xaric olunma fərdi qaydada, şəxsi yazılı ərizə əsasında həyata keçirilir. Həmkarlar İttifaqına qəbul və xaric olunma barədə qərar ilk həmkarlar ittifaqı təşkilatının yığıncağında və ya həmkarlar ittifaqı komitəsinin iclasında qəbul edilir.

4.5. Yığıncaqda iştirak edən həmkarlar ittifaqı təşkilatının üzvlərinin və ya həmkarlar ittifaqı komitəsi üzvlərinin yarıdan çoxu lehinə səs verərsə, qərar qəbul edilmiş sayılır.

4.6. Həmkarlar İttifaqında üzvlük stajı üzvlüyə qəbul edilmə barədə qərarın verildiyi gündən hesablanır. Üzvlüyə qəbul edilmiş şəxsə üzvlük bileti verilir.

4.7. Həmkarlar İttifaqının üzvləri əsas iş və ya təhsil yerinin ilk həmkarlar ittifaqı təşkilatında qeydiyyata götürürlər. Digər sahə və ya ərazi həmkarlar ittifaqında birləşən müəssisə, idarə, təşkilatdan yeni iş yerinə keçmiş işçilər Həmkarlar İttifaqının üzvlüyündə qalır.

4.8. Həmkarlar İttifaqının üzvləri aşağıdakı hallarda Həmkarlar İttifaqında qalmaq hüququna malikdirlər:

- azyaşlı uşaqların tərbiyəsi ilə əlaqədar iş yerini müvəqqəti tərk etdikdə;
- müvəqqəti işsiz qaldıqda;
- həqiqi hərbi xidmətə çağırıldıqda;
- səhhətinə və ya yaşına görə təqaüdə çıxarkən İttifaqda qalmaq barədə müraciət etdikdə.

4.9. Həmkarlar İttifaqının üzvləri bu Nizamnamədə nəzərdə tutulmuş bərabər hüquq və vəzifələrə malikdirlər.

4.10. Həmkarlar İttifaqının üzvü aşağıdakı hüquqlara malikdir:

- işə qəbul olunması, başqa işə keçirilməsi, işdən azad olunması, əməyin ödənilməsi, məzuniyyət verilməsi, müvəqqəti əmək qabiliyyətini itirməyə və ya qocalığa görə maddi cəhətdən təmin olunması ilə əlaqədar qanunvericilik pozularsa, əməyin mühafizəsi qaydalarına və normalarına riayət olunmazsa, müvəqqəti iş yerini itirməsi, müəssisənin ləğvi və müflis olması hallarında, digər qanuni hüquq və mənafeləri pozulduğu halda Həmkarlar İttifaqı tərəfindən müdafiə olunmaq;
- Həmkarlar İttifaqı orqanlarından hüquqi, iqtisadi, əməyin mühafizəsi və sosial sığorta məsələlərinə dair məsləhətlər, maddi yardım almaq;
- Həmkarlar İttifaqının seçkili orqanlarında işlədiyi müddətdə əmək kollektivi üzvlərinə kollektiv müqaviləyə əsasən verilən hüquq və güzəştlərdən istifadə etmək;
- üzvü olduğu təşkilatın fəaliyyətində, o cümlədən qərarların hazırlanması, müzakirə olunması və qəbul edilməsində, onların icrasına və həmkarlar komitəsinin işinə nəzarətin həyata keçirilməsində iştirak etmək;
- üzvü olduğu ilk Həmkarlar İttifaqı təşkilatının orqanlarına namizədlər, o cümlədən öz namizədliyini irəli sürmək, seçmək və seçilmək, yığıncaq və konfransa nümayəndə seçilmək, irəli sürülmüş namizədlərin xeyrinə təbliğat işi aparmaq;
- Həmkarlar İttifaqının fəaliyyətinə dair bütün məsələləri yığıncaqlarda, konfranslarda, Həmkarlar İttifaqı komitələrinin iclaslarında,

mətbuat və digər kütləvi informasiya vasitələrində azad müzakirə etmək, təkliflər, alternativ layihələr irəli sürmək, öz rəyini azad söyləmək və müdafiə etmək, hər hansı İttifaq orqanının ünvanına və vəzifəsindən asılı olmayaraq, hər hansı Həmkarlar İttifaqı üzvünün ünvanına tənqidlə çıxış etmək;

- onun məsuliyyət məsələsinə baxılarkən Həmkarlar İttifaqının yığıncaqlarında şəxsən iştirak etmək;
- Həmkarlar İttifaqının orqanına müraciət etmək və öz müraciətinin mahiyyəti üzrə cavab tələb etmək, Həmkarlar İttifaqı təşkilatlarının, rəhbər orqanlarının işi haqqında məlumat almaq;
- Həmkarlar İttifaqında fəal iştirakına və əməkdəki uğurlarına görə Həmkarlar İttifaqı tərəfindən mənəvi və maddi həvəsləndirilmək.

4.11. İttifaq üzvlərinin aşağıdakı vəzifələri vardır:

- Həmkarlar İttifaqının fəaliyyətində iştirak etmək, Nizamnaməyə riayət etmək, ilk Həmkarlar İttifaqı təşkilatının və Həmkarlar İttifaqının seçkili orqanlarının qərar və tapşırıqlarını yerinə yetirmək, hər ay müəyyən olunmuş qaydada üzvlük haqqını ödəmək;
- Həmkarlar İttifaqının nüfuzunu qorumaq, Həmkarlar İttifaqına zərər vuran, Nizamnamə tələblərinə zidd olan hallara yol verməmək, iş yoldaşları ilə hörmətlə davranmaq, qanuni hüquqları sahibkarlar, işəgötürənlər, idarəetmə orqanları tərəfindən pozulan həmkarları ilə həmrəy olmaq;
- kollektiv müqavilələrin, razılaşmaların, daxili əmək qaydalarının tələblərinə riayət etmək.

4.12. Nizamnamə tələblərini yerinə yetirmədiyinə, Həmkarlar İttifaqının parçalanmasına yönəldilmiş, Həmkarlar İttifaqına zərər vuran fəaliyyətinə görə Həmkarlar İttifaqı üzvünə aşağıdakı intizam tədbirləri tətbiq edilə bilər:

- irad,
- töhmət,
- üzvlükdən xaric edilmə.

4.13. İntizam tədbirlərinin tətbiq edilməsi barədə qərarı ilk Həmkarlar İttifaqı təşkilatının ümumi yığıncağı, həmçinin seçkili orqanı qəbul edir. İlk Həmkarlar İttifaqı təşkilatının ümumi yığıncağında və ya seçkili orqanın iclasında iştirak edənlərin sadə səs çoxluğu ilə çıxarılmış qərar qəbul edilmiş hesab edilir.

4.14. İntizam tədbiri tətbiq edilməsi barədə qərar üzvün iştirakı ilə qəbul edilir. Həmin üzvün ümumi yığıncaqda və ya seçkili orqanın iclasında iştirak etməkdən üzürsüz səbəbdən imtina etdikdə məsələyə onun iştirakı olmadan baxıla bilər.

4.15. Üzvlükdən xaric olunan şəxs iki ay ərzində həmin qərar barədə yuxarı Həmkarlar İttifaqı orqanlarına şikayət edə bilər. Ərizə, qəbul edilən gündən 1 ay gec olmayaraq yuxarı Həmkarlar İttifaqı orqanı tərəfindən baxılmalıdır.

4.16. Yuxarı Həmkarlar İttifaqı orqanı tənbeh verilmə və yaxud Həmkarlar İttifaqından xaric olunma haqqında qərarı ləğv edə, həmin şəxsi üzvlüyə bərpa edə bilər.

4.17. Üzvlükdən xaric olunmuş şəxs üzvlüyə ümumi əsaslarla 1 ildən tez olmayaraq yenidən qəbul edilə bilər.
Həmkarlar İttifaqının nüfuzuna öz əməlləri ilə xələl gətirmiş və ya həmkarlar ittifaqının etibarını itirmiş seçkili orqanların üzvləri yenidən seçkili orqanların tərkibinə seçilə bilməzlər.

4.18. Həmkarlar İttifaqının seçkili orqanının üzvünün məsuliyyətə cəlb olunması məsələsi həmin orqanın təqdimatı əsasında onun qeydiyyatda olduğu ilk Həmkarlar İttifaqı təşkilatının iclasında və yaxud yuxarı Həmkarlar İttifaqı orqanı tərəfindən həll edilir.

4.19. Həmkarlar İttifaqından çıxmış və ya xaric edilmiş şəxs Həmkarlar İttifaqı tərəfindən müdafiə hüququnu, Həmkarlar İttifaqının mülkiyyətindən və imtiyazlarından istifadə etmək hüquqlarını itirir.

4.20. Ödənilmiş üzvlük haqqları geri qaytarılmır.

4.21. Həmkarlar İttifaqının üzvü üzvlükdən çıxarılma barədə qərardan məhkəməyə şikayət verə bilər.

## V. HƏMKARLAR İTTİFAQINDA İDARƏÇİLİYİN ƏSAS PRİNSİPLƏRİ.

5.1. Həmkarlar İttifaqı öz fəaliyyətini və onun tərkibinə daxil olan təşkilatlarla qarşılıqlı münasibətlərini aşağıdakı prinsiplər əsasında qurur:

- üzvlüyün könüllülüyü;
- üzvlərin bərabərliyi;
- Həmkarlar İttifaqına üzv olan sahə, peşə, ərazi və ilk Həmkarlar İttifaqı təşkilatlarına metodiki rəhbərlik etmək, onların fəaliyyətlərini istiqamətləndirmək.
- Həmkarlar İttifaqının nüfuzunun möhkəmləndirilməsi, Həmkarlar İttifaqı təşkilatlarının və onların seçkili orqanlarının məqsəd və vəzifələrinin həyata keçirilməsində qarşılıqlı kömək və həmrəyliyin inkişafı;
- bütün Həmkarlar İttifaqı orqanlarının seçkili olması;

- Həmkarlar İttifaqı orqanlarına seçilənlərin şəxsi məsuliyyəti, seçkili orqanların, onların rəhbərlərinin yuxarı Həmkarlar İttifaqı orqanları qarşısında hesabatlı olması;
- Həmkarlar İttifaqı kadrlarının peşəkarlığının artırılması;
- Seçkili orqanların işində kollegiallıq, qəbul edilmiş qərarların və Həmkarlar İttifaqının tapşırıqlarının yerinə yetirilməsinə görə şəxsi məsuliyyət;
- hər bir Həmkarlar İttifaqı üzvünün rəyinə hörmət, məsələlərin müzakirəsi zamanı diskussiyaların azadlığı və qərarlar qəbul edildikdən sonra fəaliyyət birliyi;
- Qərar qəbul olunarkən qanunun və Nizamnamə tələblərinin aliliyi;
- İttifaqın yuxarı orqanlarının qərarlarının yerinə yetirilməsinin aşağı orqanlar üçün məcburiliyi;
- İttifaq orqanlarının öz təşkilatları və yuxarı orqanlar qarşısında hesabatı.

5.2. Həmkarlar İttifaqının Respublika, şəhər, rayon və ilk təşkilatları öz fəaliyyətlərini bu Nizamnaməyə, Respublika Komitəsi tərəfindən təsdiq olunmuş Əsasnamələrə müvafiq həyata keçirirlər.

5.3. Həmkarlar İttifaqı təşkilatlarında ali idarəetmə orqanı yığıncaq və ya konfransdır.

5.4. Yığıncaq (konfrans) həmin təşkilat üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətli sayılır.

5.5. Yığıncağın (konfransın) qərarları səsvermədə iştirak edənlərin sadə səs çoxluğu ilə qəbul olunur.

5.6. Yığıncaq (konfrans):
- ilk, şəhər, rayon və sahə Həmkarlar İttifaqının fəaliyyətinin əsas istiqamətlərini müəyyənləşdirir;
- seçkili orqanın və təftiş komissiyasının hesabatını dinləyir və müzakirə edir və fəaliyyətinə qiymət verir;
- yığıncağın (konfransın) işçi orqanlarını seçir;
- seçkili orqanların, təftiş komissiyasının formalaşması qaydasını müəyyən edir, səsvermə formasını (açıq və ya qapalı) təyin edir;
- yığıncaqlararası (konfranslararası) bütün cari işə rəhbərlik edən işçi orqanı və təftiş komissiyası üzvlərini seçir;
- Həmkarlar İttifaqının şəhər və rayon konfranslarına, o cümlədən ümumrespublika Konfransına nümayəndələr nümayəndəlik normasına uyğun olaraq öz nümayəndələrini irəli sürür və seçir.

5.7. Konfrans nümayəndələrinin nümayəndəlik norması və seçilmə qaydası, Konfransın keçirilməsi barədə qərar vermiş orqan tərəfindən müəyyənləşdirilir.

5.8. Həmkarlar İttifaqının konfranslarına nümayəndələrin seçilməsi, Həmkarlar İttifaqı orqanlarının üzvlərinin seçilməsi, tərkibdən xaric edilməsi və dəyişdirilməsi Həmkarlar İttifaqının plenar yığıncağında (konfransında) həyata keçirilə bilər.

5.9. Səsvermədə iştirak edən yığıncaq (konfrans) iştirakçılarının yarıdan çoxunun səsini toplamış üzv seçilmiş hesab edilir.

5.10. Həmkarlar İttifaqı təşkilatlarının seçkili orqanı Komitədir. Komitənin rəhbərlərinin seçkisi, həmin seçkili orqanın tərkibindən yığıncaqda həyata keçirilir. Komitənin rəhbər orqanının tərkibinə və sədr vəzifəsinə yalnız ittifaq üzvləri seçilə bilərlər.

5.11. Həmkarlar İttifaqının seçkili orqanının rəhbəri yığıncaq iştirakçılarının sadə səs çoxluğu ilə seçilir.

5.12. Həmkarlar İttifaqı orqanlarının rəhbərliyi Nizamnaməyə əməl olunmasını, yuxarı Həmkarlar İttifaqı orqanlarının qərarlarının icrasını təmin edir və onların yerinə yetirilməsinə şəxsi məsuliyyət daşıyırlar.

5.13. Bütün Həmkarlar İttifaqı orqanları və onların rəhbərlərinin seçkisi beş ildə bir dəfə keçirilir. Bütün Həmkarlar İttifaqı orqanları və onların rəhbərləri hər il öz fəaliyyətləri barədə hesabat verirlər.

5.14. Seçkili orqanların növbədənkənar seçkisi Həmkarlar İttifaqı üzvlərinin üçdə birinin tələbi ilə, yaxud müvafiq Həmkarlar İttifaqı komitəsinin qərarına əsasən, o cümlədən yuxarı Həmkarlar İttifaqı orqanının qərarı ilə keçirilə bilər.

5.15. Seçkili Həmkarlar İttifaqı orqanının, təftiş komissiyasının üzvü seçkili orqanın, təftiş komissiyasının tərkibindən, yığıncaq iştirakçılarının sadə səs çoxluğu və ya yuxarı Həmkarlar İttifaqı orqanının qərarı ilə, səlahiyyət müddəti qurtarmazdan əvvəl xaric edilə bilər.

5.16. İlk, şəhər və rayon Həmkarlar İttifaqı təşkilatlarının rəhbərləri tutduqları vəzifədən səlahiyyət müddətləri qurtarmazdan əvvəl azad edilə bilərlər. Həmkarlar İttifaqının rəhbərinin vaxtından əvvəl azad edilməsi hüququ ümumi yığıncağa, zəruri hallarda isə yuxarı Həmkarlar İttifaqı orqanına məxsusdur. Bu barədə qərar yığıncaq (konfrans) iştirakçılarının sadə səs çoxluğu ilə qəbul olunur.

5.17. Siyasi partiyaların rəhbər orqanlarının tərkibinə seçilmiş Həmkarlar İttifaqı üzvləri Həmkarlar İttifaqının komitələrinə rəhbərlik edə bilməzlər.

5.18. Komitə cari işi aparmaq üçün müstəqil olaraq özünün işçi orqanlarının (daimi və müvəqqəti komissiyaların, işçi qrupların) strukturunu təsdiq edir və tərkibini formalaşdırır, onların funksiyalarını, hüquq və vəzifələrini müəyyənləşdirir.

5.19. Komitənin iclasları (plenumları) Komitənin Rəyasət Heyəti tərəfindən zərurət olduqda, lakin ildə bir dəfədən az olmayaraq çağırılır. Həmkarlar İttifaqı (ilk, şəhər və rayon) komitələrinin Plenumları onların üzvlərinin üçdə birindən az olmayan hissəsinin tələbi ilə və yaxud yuxarı Həmkarlar İttifaqı orqanlarının təşəbbüsü ilə çağırıla bilər.

5.20. Seçkili Həmkarlar İttifaqı orqanlarının iclasları həmin orqanların üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətli sayılır. Seçkili orqanın səsvermədə iştirak edən üzvlərinin yarıdan çoxunun lehinə səs verdiyi qərar qəbul olunmuş sayılır.

5.21. Təftiş komissiyalarının üzvləri seçkili orqanların iclaslarında məşvərətçi səslə iştirak edə bilərlər.

## VI. İLK HƏMKARLAR İTTİFAQI TƏŞKİLATLARI.

6.1. Həmkarlar İttifaqının əsası ilk təşkilatdır. İlk Həmkarlar İttifaqı təşkilatı bir müəssisədə, birlikdə, təşkilatda işləyən və ya tədris müəssisəsində təhsil alan ittifaq üzvlərindən yaradılır.
İlk Həmkarlar İttifaqı təşkilatı (bundan sonra İlk təşkilat) ən azı 7 nəfər tərəfindən yaradıla bilər. İlk təşkilat yaratmaq və Həmkarlar İttifaqına daxil olmaq haqqında qərar təsis yığıncağında qəbul edilir və bu barədə yuxarı ittifaq orqanına məlumat verilir.

6.2. İlk Həmkarlar İttfiaqı təşkilatların öz fəaliyyətlərində Azərbaycan Respublikasının qanunvericiliyini, Həmkarlar İttifaqı Nizamnaməsini və ilk Həmkarlar İttifaqı təşkilatı haqqında Əsasnaməni rəhbər tuturlar.

6.3. İlk təşkilat yuxarı həmkarlar ittifaqı orqanlarının formalaşmasında iştirak edir və onların fəaliyyətini maliyyələşdirir.

6.4. İlk təşkilat həmin Nizamnaməni rəhbər tutaraq:

- Öz fəaliyyətinin istiqamətlərini, təşkilatın strukturunu, öz seçkili orqanının formalaşma qaydasını və funksiyalarını müəyyənləşdirir.
- yuxarı həmkarlar ittifaqı orqanlarının hesabına köçürmələri icra etdikdən sonra yuxarı həmkarlar ittifaqı təşkilatı ilə razılaşdırılmış büdcə əsasında təşkilatda qalan maliyyə vəsaitləri üzərində sərəncam verir;

- öz funksiyalarını həyata keçirmək üçün əməyi ödənilən ekspert və mütəxəssisləri cəlb edir.

6.5. İlk təşkilatın strukturu aşağıdakı kimidir:
- Həmkarlar İttifaqı təşkilatçısı,
  - Sex (büro) komitəsi,
  - Həmkarlar İttifaqı komitəsi.

6.6. 25 nəfərdən az üzvü birləşdirən İlk təşkilatda Həmkarlar İttifaqı təşkilatçısı seçilir.

6.7. İstehsal stukturundan asılı olaraq ilk təşkilatda sex (büro) komitəsi yaradılır.

6.8. Həmkarlar İttifaqı komitəsi sex komitəsinin (bürosunun) sədrini və onun müavinini seçir. 25 nəfərdən yuxarı və daha çox üzvü birləşdirən İlk təşkilatda Həmkarlar İttifaqı komitəsi yaradılır.
Komitə öz sədrini, sədrin müavinini və Rəyasət Heyətini seçir.

6.9. İlk Həmkarlar İttifaqı təşkilatına maliyyə imkanları daxilində, Respublika Komitəsinin qərarı ilə sədr üçün Ştat Vahidi verilə bilər.

6.10. İlk təşkilatın ali orqanı onun yığıncağıdır.

6.11. İlk təşkilatlar öz işində bu Nizamnaməni, yuxarı İttifaq orqanlarının qərarlarını rəhbər tutur və ona hesabat verir.

6.12. İlk təşkilat həmin təşkilatın Həmkarlar İttifaqı yığlncağının qərarı ilə və yuxarı təşkilatın razılığı ilə yaradılır və buraxılır.

6.13. Yığıncaqlar arasındakı dövrdə Həmkarlar İttifaqı təşkilatının fəaliyyətinə Həmkarlar İttifaqı komitəsi rəhbərlik edir.

6.14. Həmkarlar İttifaqı komitəsi öz fəaliyyəti haqqında Həmkarlar İttifaqı yığıncağına və yuxarı Həmkarlar İttifaqı orqanına hesabat verir.

6.15. Sex komitəsi (Həmkarlar İttifaqı bürosu) sexdə, bölmədə, şöbədə Həmkarlar İttifaqının işini təşkil edir, Həmkarlar İttifaqı komitəsinin qərarlarının yerinə yetirilməsini təmin edir.

6.16. İlk Həmkarlar İttfiaqı təşkilatları hər il hesabat, 5 ildən bir isə hesabat-seçki yığıncaqlarını keçirirlər.

## VII. HƏMKARLAR İTTİFAQININ RAYON, ŞƏHƏR KOMİTƏLƏRİ.

7.1. İnzibati - ərazi (şəhər, rayon) vahidində yerləşən ilk Həmkarlar İttifaqı təşkilatlarının, zəruri hallarda isə yuxarı Həmkarlar İttifaqı orqanının təşəbbüsü ilə şəhər və rayon Həmkarlar İttifaqı komitələri yaradılır.

7.2. Şəhər və rayon Həmkarlar İttifaqı komitələrinin ali orqanı şəhər, rayon konfranslarıdır.
Konfransın çağırılması və gündəliyi haqqında məlumat ən geci konfransa bir ay qalmış elan edilir. Konfrans komitənin və təftiş komissiyasının hesabatlarını dinləyir, komitə sədrini və təftiş komissiyasını seçir.
Konfrans həmçinin, Həmkarlar İttifaqı komitəsini və təftiş komissiyasını birbaşa nümayəndə seçmək prinsipi ilə formalaşdırır, səlahiyyətini təsdiq edir, yuxarı Həmkarlar İttifaqı orqanlarının konfranslarına nümayəndələr seçir.

7.3. Şəhər və rayon Həmkarlar İttifaqı komitələri ilk təşkilatları özündə birləşdirir və onlara hüquq və vəzifələrini həyata keçirməkdə əməli yardım göstərir.

7.4. Şəhər və rayon Həmkarlar İttifaqı komitələrinə maliyyə imkanları daxilində Respublika Komitəsinin qərarı ilə sədr üçün Ştat Vahidi verilə bilər.

7.5. 300 nəfərə qədər Həmkarlar İttifaqı üzvünü birləşdirən şəhər və rayon komitələrinə 15 nəfərdən ibarət olan komitə üzvü seçilir.

7.6. 300 nəfərdən 600 nəfərə qədər Həmkarlar İttifaqı üzvünü birləşdirən şəhər və rayon komitələrinə 15-19 nəfərdən ibarət komitə üzvü seçilir.

7.7. 600 nəfərdən yuxarı Həmkarlar İttifaqı üzvünü birləşdirən şəhər və rayon komitələrinə 21-25 nəfərdən ibarət olan komitə üzvü seçilir.

7.8. 500 nəfərə qədər Həmkarlar İttifaqı üzvünü birləşdirən şəhər və rayon komitələrinə 3 nəfərdən ibarət təftiş komissiyası seçilir.

7.9. 500 nəfərdən yuxarı Həmkarlar İttifaqı üzvünü birləşdirən şəhər və rayon komitələrinə 5-7 nəfərdən ibarət təftiş komissiyası seçilir.

7.10. Həmkarlar İttifaqının şəhər və rayon komitələrinin işinə konfranslararası müddətdə onların plenumları rəhbərlik edir. Plenum Rəyasət Heyətini və Respublika Komitəsinin sonrakı təsdiqi ilə komitənin sədrini seçə bilər.

7.11. Komitə öz fəaliyyəti barədə konfransa və yuxarı Həmkarlar İttifaqı orqanına hesabat verir.

7.12. Plenumlararası dövrdə komitənin işinə Rəyasət Heyəti rəhbərlik edir.

7.13. Həmkarlar İttifaqı şəhər və rayon komitələrinin plenumları ildə bir dəfədən az olmamaqla keçirilir.

## VIII. HƏMKARLAR İTTİFAQININ RESPUBLİKA KOMİTƏSİ.

8.1. Mədəniyyət İşçiləri Həmkarlar İttifaqının Ali orqanı Konfransdır.

8.2. Həmkarlar İttifaqının ali orqanı olan Konfrans Respublika Komitəsinin tərkibini müəyyənləşdirir və seçir.

8.3. Konfrans Həmkarlar İttifaqının Respublika Komitəsi tərəfindən çağırılır.

8.4. Konfransın çağırılması və gündəliyi haqqında məlumat konfransa 3 ay qalmış elan edilir.

8.5. Konfrans:

- Həmkarlar İttifaqının Respublika Komitəsinin və Təftiş komissiyasının hesabatlarını dinləyir.
  Həmkarlar İttifaqı Respublika Komitəsinin sədrini və Rəyasət Heyətinin üzvlərini seçir və səlahiyyətlərini təsdiq edir.
- Həmkarlar İttifaqının gələcək fəaliyyətini (konsepsiyasını) müəyyənləşdirir.
- Həmkarlar İttifaqının Nizamnaməsində dəyişikliklər və əlavələr edir.
- Həmkarlar İttifaqı Respublika Komitəsinin və Təftiş komissiyasının səlahiyyətlərini təsdiq edir.
- Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının qurultayına, seçkili orqanlarına, məclisinə və digər beynəlxalq qurumlara nümayəndələr seçir.

8.6. Həmkarlar İttifaqının Respublika Komitəsi:

- ümumilikdə Həmkarlar İttifaqının fəaliyyətinə rəhbərlik edir,
- ümumi problemlərin həllində Həmkarlar İttifaqı təşkilatlarının fəaliyyətini birləşdirir və əlaqələndirir, onlara metodiki rəhbərlik edir, təşkilati köməklik göstərir.
- işçilərin və Həmkarlar İttifaqı təşkilatlarının dövlət, təsərrüfat orqanlarında və ictimai təşkilatlarda hüquq və mənafelərini təmsil və müdafiə edir, qanunvericiliyə uyğun olaraq sosial-iqtisadi məsələlərin həllində iştirak edir.
- Həmkarlar İttifaqı komitələrinin, ümumrespublika və beynəlxalq Həmkarlar İttifaqı hərəkatının müsbət iş təcrübəsini ümumiləşdirir və yayır.
- Həmkarlar İttifaqı üzvlərinin maarifləndirilməsini təşkil edir, digər

Həmkarlar İttifaqları ilə birgə tədbirlər keçirir.

- konfranslararası dövrdə Həmkarlar İttifaqının Nizamnaməsinə dəyişikliklər və əlavələrin edilməsi haqda təklifləri ümumiləşdirir.
- bu Nizamnamənin müddəalarına uyğun fəaliyyət göstərir.
- üzvlərinin peşə,əmək, sosial-iqtisadi, mənəvi hüquqlarını və mənafelərini dövlət, təsərrüfat orqanlarında və ictimai təşkilatlarda təmsil edir və hüquqlarının müdafiəsində durur.
- əmək, məişət, mədəniyyət, idman və gənclər məsələləri barədə respublikanın dövlət hakimiyyət və idarəetmə orqanlarına təkliflər verir,həyat və əmək şəraitinin, tibbi xidmətin və pensiya təminatlarının tənzimlənməsinə, sosial ədalət prinsipinin bərqərar olmasına, işçilərin peşə hazırlığının artırılmasına, sağlam iqtisadi şəraitin yaradılmasına yönəldilən qanunvericilik və normativ aktlarda iqtisadi və sosial inkişaf proqramlarının əksini tapmasına çalışır.
- üzvlərinin əməyinin ödənilməsinə dair yeni şərtlərin hazırlanmasında, müzakirəsində, təsdiq olunmasında (razılaşdırılmasında) iştirak edir.

- sağlam və təhlükəsiz əmək şəraitinin yaradılmasına, kollektiv müqavilələrə və sazişlərə, əmək qanunvericiliyinə riayət olunmasına nəzarət edir.
- üzvlərinin sosial və pensiya təminatını yaxşılaşdırmaq barədə təkliflərin hazırlanmasında iştirak edir.
- Həmkarlar İttifaqına daxil olan müəssisə və təşkilatlarda əməyin mühafizəsi, texniki təhlükəsizlik və əmək qanunvericiliyi ilə əlaqədar ictimai nəzarəti təşkil edir, və onların fəaliyyətinə rəhbərlik edir.
- ilk təşkilatların, şəhər və rayon Həmkarlar İttifaqı komitələrinin irəli sürdükləri qanuni və ədalətli tələbləri müdafiə etmək, mitinqlər, nümayişlər və tətillər keçirmək, kütləvi informasiya vasitələrində çıxışlar təşkil etməklə, işçilərin hüquq və mənafelərinin müdafiəsi üçün qanunvericilikdə nəzərdə tutulmuş bütün vasitələrdən istifadə edir.
- respublikanın dövlət hakimiyyəti və idarəetmə orqanlarında müzakirə olunan qanunvericilik aktlarının və direktiv sənədlərin layihələri üzrə təkliflər hazırlayır,
- üzvlərinin mənafelərinə uyğun hərəkət edən ictimai birliklər və hərəkatlarla qarşılıqlı əlaqə şəraitində fəaliyyət göstərir.
- Həmkarlar İttifaqı orqanlarına təşkilati, metodiki, hüquqi köməklik göstərir, məsləhətlər verir.
- Həmkarlar İttifaqı kadrlarının və fəallarının təhsilini təşkil edir.

- Həmkarlar İttifaqı üzvlərinə hüquqi və maddi yardım göstərir.

- keçirilmiş hesabat-seçki yığıncaqlarının və konfransların, həmçinin bu yığıncaq və konfranslarda seçilmiş sədrlərin, birbaşa

seçilmiş nümayəndələrin və Respublika Komitəsinin üzvlərinin səlahiyyətlərini təsdiq edir.

8.7. Respublika Komitəsi konfranslararası dövrdə Həmkarlar İttifaqının işinə rəhbərlik etmək üçün Respublika Komitəsinin sədrini və Rəyasət Heyətini seçir.

8.8. Respublika Komitəsinin Rəyasət Heyəti 5 il müddətinə seçilir. Həmkarlar İttifaqının işinə rəhbərlik etmək üçün Rəyasət Heyəti öz iclaslarını keçirir.

8.9. Respublika Komitəsinin Rəyasət Heyəti:

- Respublika Komitəsinin aparatının strukturunu və Ştat Cədvəlini təsdiq edir.
- İlk, şəhər və rayon komitələrinin bu Nizamnamənin tələblərinə cavab verməyən, korporativ maraqlar və qərəzçilik güdən qərarlarını ləğv edir.
- Həmkarlar İttifaqı işinin bütün istiqamətlərinə aid olan məsələlərə baxır və onların həllinə aid əlaqədar qərarlar qəbul edir,
- maliyyə hesabatlarını dinləyir.
- Respublika Komitəsinin büdcəsini təsdiq edir,
- kadr məsələlərini həll edir.
- Həmkarlar İttifaqı komitələrinin hesabatlarını dinləyir.
- Həmkarlar İttifaqlarına seçilmiş sədrlərin səlahiyyətlərini təsdiq edir.
- Həmkarlar İttifaqının maliyyə konsepsiyasını müəyyən edir,
- Həmkarlar İttifaqının bazasını möhkəmlətmək üçün yeni strukturlar yaradır.
- Respublika Komitəsinin strukturunu və ştat cədvəlini təsdiq edir.
- Rəyasət Heyəti ittifaq üzvlərinin sosial, iqtisadi hüquqlarına və mənafelərinə aid olan normativ aktların hazırlanmasında iştirak edir, üzvlərinin hüquqlarının müdafiəsi üçün müxtəlif aksiyalar keçirir.
- Həmkarlar İttifaqının Respublika Komitəsi özünün fəaliyyəti haqqında Həmkarlar İttifaqı Konfransına hesabat verir.
- Həmkarlar İttifaqı Respublika Komitəsinin Plenumları ildə bir dəfə çağırılır. Rəyasət Heyətinin iclasları ayda bir dəfə keçirilir.

## IX. HƏMKARLAR İTTİFAQININ MALİYYƏ MƏNBƏLƏRİ VƏ ƏMLAKI.

9.1. İttifaqın vəsaiti aylıq üzvlük haqqlarından, mədəni-maarif, idman tədbirlərindən, ayırmalardan, müstəqil təsərrüfat fəaliyyətindən əldə

olunan və qanunla qadağan olunmayan digər fəaliyyət növlərindən əldə olunan gəlirlərdən yaranır.

9.2. Aylıq üzvlük haqqları aylıq qazancın iki faizi miqdarında ödənilir. Həmkarlar İttifaqının üzvü olub, işləməyən pensiyaçılar aldığı pensiyanın 1%-i miqdarında üzvlük haqqı verirlər. Uşaqların tərbiyəsi ilə əlaqədar işi müvəqqəti dayandırmış qadınlar, işdən müvəqqəti məhrum olmuş fəhlə və qulluqçular (ştatların ixtisar edilməsi, müəssisənin bağlanması və sair.) üzvlük haqqı ödəmirlər.

9.3. İttifaqın vəsaiti Respublika Komitəsi tərəfindən təsdiq edilmiş smetalar əsasında üzvlərin əmək haqqına, mədəni-kütləvi və idman tədbirlərinin keçirilməsinə, fəal üzvlərin mükafatlandırılmasına, xeyriyyə məqsədlərinə, üzvlərə maddi yardım edilməsinə və digər məqsədlərə xərclənir.

9.4. Respublika Komitəsinin Rəyasət Heyəti Həmkarlar İttifaqı təşkilatlarının ştat vahidinin maaşını maliyyə imkanı daxilində təsdiq edir.

9.5. Respublika Komitəsinin Rəyasət Heyəti öz aparatının ştat cədvəlini müəyyən edir və əmək haqqı fonduna əsasən işçilərin maaşlarını təyin edir.

9.6. İttifaq mülkiyyət hüququna malikdir, özünəməxsus əmlak və pul vəsaiti üzərində sahiblik, istifadə etmək və sərəncam vermək hüququ vardır. Həmkarlar İttifaqı təşkilatları Respublika Komitəsinə üzvlük haqqının 40%-ni köçürürlər.

9.7. İttifaqın binaları, mədəni-maarif obyektləri, idman-sağlamlıq qurğuları, idarəetmə avadanlığı, mədəni-maarif fondları, pul vəsaiti və başqa əmlakı onun mülkiyyət hüququnun obyektini və predmetini təşkil edir.

9.8. Həmkarlar İttifaqı orqanlarının maliyyə-təsərrüfat fəaliyyətinə yalnız müvafiq Həmkarlar İttifaqı təşkilatının təftiş komissiyası nəzarət edir.

9.9. Respublika Komitəsi özünün yaratdığı müəssisə, təşkilat və cəmiyyətləri maliyyələşdirir, həmçinin başqa təsərrüfat və kommersiya işlərindən əldə etdiyi pul vəsaitini banklarda saxlayır və aldığı dividentlərdən bu Nizamnamə ilə müəyyən edilmiş məqsədlərə sərbəst istifadə edir. Həmkarlar İttifaqı komitələri isə yuxarıda qeyd edilən fəaliyyətləri yalnız Respublika Komitəsinin razılığı ilə həyata keçirə bilərlər.

9.10. Respublika Komitəsi həmrəylik və sosialyönümlü müxtəlif fondlar yarada bilər, yığılacaq vəsaitin toplanma və istifadə olunma mexanizmini müəyyən edə bilər.

9.11. Həmkarlar İttifaqının maliyyə ili 1 yanvarda başlayır və 31 dekabrda başa çatır.

## X. HƏMKARLAR İTTİFAQININ FƏALİYYƏTİNƏ XİTAM VERİLMƏSİ.

10.1.İttifaqın fəaliyyətinə onun yenidən təşkil edilməsi (birləşmə, qoşulma, bölünmə, ayrılma, çevrilmə) və ləğv edilməsi yolları ilə xitam verilir. İttifaqın fəaliyyətinə xitam verilməsi mövcud qanunvericilikdə nəzərdə tutulmuş qaydada həyata keçirilir. İttifaqın yenidən təşkil edilməsi və ləğv edilməsi konfrans nümayəndələrinin azı üçdə iki səs çoxluğu ilə qəbul olunur.

10.2. İttifaqın fəaliyyətinə xitam verilməsi haqqında qərara əsasən ləğvetmə komissiyası yaradılır. Bu andan İttifaqın idarəçiliyi ilə əlaqədar bütün səlahiyyətlər ona keçir. Ləğvetmə komissiyası ləğvetmə balansını tərtib edir. İttifaqın ləğvi zamanı büdcə ilə hesablaşmalardan və kreditorların tələbləri ödənildikdən sonra qalan əmlak qanunvericiliklə müəyyən olunmuş qaydada Nizamnamə məqsədlərinə, bu mümkün olmadıqda isə dövlət büdcəsinə yönəldilir. İttifaqın ləğvi Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və digər qanunvericilik aktlarına əsasən həyata keçirilir.

## XI. DİGƏR ŞƏRTLƏR.

11.1. Bu Nizamnamədə nəzərdə tutulmayan məsələlər qanunvericiliklə tənzimlənir.

11.2. Gələcəkdə bu Nizamnamənin müddəaları qanunvericiliklə ziddiyyət təşkil edərsə, qanunvericiliyin müddəalarına üstünlük verilir.